


| Azərbaycan Respublikası Səhiyyə Nazirliyi<br>1 nömrəli Respublika Psixiatriya Xəstəxanası | Razılıq Forması |
|---|---|
| Anesteziyalı Elektro Konvulsiv Terapiya | |

Xəstənin adı soyadı: ..................................................... X/t № .........................

Dögum tarixi: ........../......................../................. Cinsi: ........................

## TƏTBİQLƏ BAĞLI MƏLUMATLANDIRMA

Xəstəxanamızda EKT (Elektrokonvulsiv müalicə, el arasında şok terapiyası) ümumi anesteziya altında həyata keçirilir. Ümumi anesteziya, Sizə, dərin yuxu altında venadaxili dərmanların təsiri ilə verilir. Eyni yolla veriləcək miorelaksantların təsiri ilə xoşagəlməlməz əzələ ağrılarnın qarşısı alınır. Anesteziya və miorelaksantlarla yanaşı maska vasitəsi ilə tənəffüs saxlanılır.

Müassir anesteziya, çox etibarlıdır. Ümumiyyətlə, anesteziya zamanı ölüm riski olduqca azdır. Bununla yanaşı başqa xoşagəlməz təsirlər də ola bilər. Bu təsirlər ümumiyyətlə müvəqqətidir, bəziləri uzun müddətdə problemlərə səbəb ola bilər.

**Tez-tez müşahidə edilən xoşagəlməz təsirlər:**

- Ürək bulanması və ya qusma
- Baş ağrısı
- Ağrı və ya inyeksiya nahiyəsində yanma
- Əzələ ağrısı

**Nadir hallarda müşahidə edilən xoşagəlməz təsirlər:**

- Diş, diş protezinin qırılması və dodaqların yaralanması
- Allergiya reaksiyaları və/və ya astma tutması
- Tənəffüsün pozulması

**Ölümə səbəb ola biləcək nadir hallar:**

- Ciddi allergiya və şok
- Çox yüksək hərarət
- İflic və ya infarkt
- Ağciyərlərə qusma, sətəlcəm
- Ağciyərlərdə qan laxtalanması

## ANESTEZİYALI EKT-dən ƏVVƏL MƏSULİYYƏTLƏRİNİZ

Aşağıda yazılanları tətbiq etdiyiniz zaman anesteziya riskiniz daha az olacaqdır:

- Sağlamlıq problemlərinizi (hipertoniya, diabet və s.), keçirdiyiniz əməliyyatları və diş problemlərinizi həkiminizə söyləyin.
- Əməliyyatdan əvvəl heç nə yeməyin, su içməyin və saqqız çeynəməyin. Mədənin boş olduğuna əmin olun. Beləliklə anesteziya zamanı qussanız ağciyərlərinizə heç bir şey getməyəcəkdir.
- Ən son yemək yediyiniz və su içdiyiniz saatı həkiminizə söyləyin.
- Siqaret çəkirsinizsə bunu tətbiqdən əvvəl psixiatr və anestezioloqa söyləyin.
- İstifadə etdiyiniz bütün reseptli və bitki tərkibli dərmanlarınızı özünüzlə gətirib psixiatr və anestezioloqa göstərin; Sizdə allergiya və ya əks təsir yarada biləcək dərmanları söyləyin.
- Tətbiqdən əvvəlki 24 saat ərzində qətiyyən spirtli içki və ya narkotik maddə qəbul etməyin.
- Əgər narkotik maddədən asılılığınız varsa bunu psixiatr və anestezioloqa söyləyin.

**Tətbiqdən sonra oyanma, özünə gəlmə.**

Tətbiqdən sonra tamamilə özünüzə gələnə qədər şöbənin tibb bacısı Sizə nəzarət edəcək. Baş ağrısı, ürək bulanması və ya qusma kimi anesteziya ilə bağlı hər hansı bir problem yaranarsa tibb bacısına söyləyin.

**Ümumi anesteziyadan sonra qadağandır!**

Ümumi anesteziya 24 saat ərzində qiymətləndirmə və ayırd etmə qabiliyyətinizə təsir göstərəcəkdir. Bu müddət ərzində;

- Nəqliyyat vasitəsindən heç istifadə etməyin.
- Mühüm qərarlar qəbul etməyin və hüquqi sənəd imzalamayın.
- Spirtli içki qəbul etməyin, şüur vəziyyətinizə təsir göstərəcək digər dərmanlardan istifadə etməyin və siqaret çəkməyin. Çünki bunlar anesteziya dərmanları ilə bir birinə təsir göstərə bilər.

## EKT İLƏ BAĞLI MƏLUMATLANDIRMA

EKT aşağıdakı hallarda istifadə edilən psixiatriya müalicə metodudur:

- İnsanın dərman müalicəsinə kifayət qədər cavab verməməsi.
- Əks təsirlər səbəbindən dərmandan istifadə edə bilməmək.
- Gözləniləcək risk səbəbindən dərman müalicəsi müddətinin gözlənilməməsi, təcili müalicəyə ehtiyac duyulması.
- İnsanın özünə və ya ətrafına zərər vermə təhlükəsi, intihar fikirləri və ya təşəbbüsləri.
- Əvvəlki müalicələrdə ən çox EKT-dən istifadə etmək.
- İnsanın seçimi.

EKT həkim nəzarəti ilə müalicə məqsədiylə yaradılmış tutmaya əsaslanır. Bu müalicə xəstənin kliniki vəziyyətinə görə bir və ya iki tərəfli tətbiq edilə bilər. Bir müalicə kursu müalicəyə görə nisbi 5-12 seansdan ibarətdir. Xəstəliyin gedişatı və müalicəyə verdiyi cavabına görə seans sayı daha az və ya daha çox ola bilər.

**EKT-nin riskləri:**

- Ümumiyyətlə müvəqqəti yaddaş pozğunluğu, unutqanlıq və müalicə müddətində baş verən yeni hadisələri xatırlamamaq kimi hallar müşahidə edilə bilər.
- Müalicədən sonra qısa müddət davam edən çaşqınlıq dövrü ola bilər.
- Çox nadir hallarda xəstədə tənəffüs gecikməsi ola bilər. Belə olan halda xəstəyə maskayla təmiz oksigen verilərək tənəffüs tam bərpa olana qədər reanimasiya şərtlərində nəzarəti davam etdirilir.
- İnsanda mövcud olan protezlər (diş, göz, sümük protezi) risk yarada bilər. Xəstə və yaxınları protez varsa həkimi mütləq xəbərdar etməlidir.
- Nadir hallarda çənə və çiyin çıxığı, sümük qırıqları ola bilər.
- Çox nadir olsa da 25.000-50.000 nəfərdən bir qəfil ölüm baş verə bilər.

Yuxarıdakı riskləri minimuma endirmək üçün EKT tətbiq ediləcək hər bir xəstə ətraflı olaraq qiymətləndirilir, bütün müvafiq müayinələr aparılır. Digər müalicə seçimlərinə görə daha səmərəli olacağı ehtimal edildiyi zaman; EKT tətbiqinə bir həkim tərəfindən deyil, müalicə aparan qrup tərəfindən qərar verilir. Yenə də xəstənin və ya yaxınlarının verilən məlumatlarla yanaşı, bu müalicə ilə bağlı daha ətraflı məlumat almaq, suallar verməK, mübahisə etmək və nəticədə EKT-ni təsdiq etmək, imtina etmək və ya başa çatdırmaq hüququ vardır.

## XƏSTƏNİN QƏYYUMU VƏ YA BİRİNCİ DƏRƏCƏLİ YAXINI

## ANESTEZİYALI EKT TƏSDİQİ

Tibbi vəziyyət və xəstəliyin diaqnozu səbəbi ilə məsləhət görülən EKT metodu mənə həkim tərəfindən izah edildi. Tətbiqin risklərini artıran amillər mənə izah edildi. Tətbiqin bütün risklərini və yarana biləcək problemləri dərk edirəm. Veriləcək dərmanların istifadəsi və əks təsirləri ilə bağlı məlumatlandırıldım.

Həkimə tətbiq metodu və riskləri haqqında suallar verdim və şübhələrimi söylədim. Suallarım və şübhələrim müzakirə edildi və qənaətbəxş şəkildə cavab verildi. Anesteziyanı həyata keçirəcək həkim xaricində başqa həkimin və anestezisoloq köməkçisinin də EKT tətbiqində iştirak edə biləcəyini bilirəm. Tətbiqin həyata keçiriləcəyi yerin bir Təlim və Tədqiqat Xəstəxanası olması səbəbiylə assistent həkimlərin də iştirak edəcəklərini bilirəm.

Anesteziya zamanı qəfildən yarana biləcək həyat üçün təhlükəli hallar və müalicə metodları həkim tərəfindən mənə izah edildi. Anesteziyalı EKT-nin təsir və risklərini başa düşdüm. Digər müalicə seçimləri ilə bağlı məlumatlandırıldım. Bununla bağlı verdiyim təsdiqdən müalicənin hər hansı bir mərhələsində imtina etmək hüququm olduğunu bilirəm. EKT-nin müalicə qrupundan yetərli təcrübəsi olan bir həkim tərəfindən tətbiq ediləcəyini bilirəm.

Yuxarıdakı şərhlərin hamısını oxudum və başa düşdüm. EKT-ni təsdiq etmədiyim halda hər hansı bir narazılıqla qarşılaşmayacağım və digər müalicə seçimlərindən məhrum edilməyəcəyim izah edildi. Bütün bu məlumatlara əsasən **ANESTEZİYALI EKT TƏTBİQİNİ QƏBUL EDİRƏM.**

Bu sənədin bir nüsxəsi mənə təhvil verildi.

| **Xəstə:** | **Qəyyum və ya birinci dərəcəli yaxın:** |
|---|---|
| Adı, Soyadı: .................................................. | Adı, Soyadı: .................................................. |
| Tarix: ........../................../ 201..... | Tarix: ........../................../ 201..... |
| İmza: ..................../.........................../ | İmza: ..................../.........................../ |

---

| **İmzaya şahidlik edən müəsissə nümayəndəsi:** | **Təsdiqləyən Həkim:** |
|---|---|
| Adı, Soyadı: .................................................. | Adı, Soyadı: .................................................. |
| Vəzifəsi: .................................................. | Vəzifəsi: .................................................. |
| Tarix: ........../................../ 201..... | Tarix: ........../................../ 201..... |
| İmza: ..................../.........................../ | İmza: ..................../.........................../ |